# Yeniləşmə şəraitində müəllim-şagird münasibətlərinin araşdırılması yolları

**Çimnaz Verdiyeva**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi*

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Acar sözlər:** məktəb, müəllim, şagird, tədris fəaliyyəti, mühit, şərait, müvəffəqiyyət, uğursuzluq, psixologiya, münasibətlər, əməkdaşlıq, formalaşma, motivlər, səviyyə, məqsəd, öyrənmək, təhlil

**Ключевые слова:** школа, учитель, ученик, учебная деятельность, обстановка, условия, успех, неудача, психология, формирование, мотивы, самоотношения, цель, изучение, анализ

**Key words:** high school, educational activity, environment, conditions, success, failure, psychology, personality, formation, self-assessment, motives, level of aspirations, purpose, study, analysis

Yeniləşmə şəraitində respublikamızın orta məktəblərində apardığımız psixoloji müşahidələrin təhlili göstərir ki, şagirdlərin əqli inkişafında müəllim-şagird əməkdaşlığı mühüm rol oynayır. Lakin qeyd etmək lazımdır ki, respublikamızın məktəblərində müəllim-şagird münasibətlərinin xarakteri kifayət qədər qaneedici deyildir. Bunlar şagirdlərin əqli inkişafının formalaşmasına öz mənfi təsirini göstərir.

İndiki zamanda, müəllim-şagird münasibətlərinin xarakterində dəyişiklik yaratmaqla şagirdlərin əqli inkişaf səviyyəsinin yüksəlməsinə nail olmaq olarmı? Bu məqsədlə Sahil rayonunda olan 160 saylı Klassik Gimnaziyada, Elitar Gimnaziyada və Xətai rayonunda 261, 95 saylı məktəblərdə eksperiment aparmağı qərara aldıq.

Tədqiqat işində biz iki cəhətə diqqət yetirdik: 1. Təlim prosesində şagirdlərin əqli inkişaf səviyyəsi nə dərəcədədir; 2. Şagirdlərin əqli inkişaf səviyyəsinin artırılması baxımından müəllim-şagird əməkdaşlığı siniflərdə hansı səviyyədə qurulub.

Psixoloji ədəbiyyatın təhlili nəticəsində biz tədqiqat prosesində şagirdlərin əqli inkişaf səviyyəsini aşağıdakı meyarlar əsasında təhlil etmək qərarına gəldik – şagirdin təlimə münasibəti necədir, özünü dərsdə necə aparır və s.

Müəllimlər çox vaxt şagirdlərlə ünsiyyətə girərkən psixoloJi və pedaqoji «kanonlara» deyil, daha çox özlərinin birtərəfli güzəran tərbiyəsinə əsaslanırlar. Adi müəllimlərin gözündə ən geniş yayılmış təsnifatı çox sadədir: prof. Ə.Əlizadə bu təsnifatı belə səciyyələndirir: yaxşı-pis oxuyan şagirdlər, intizamlı-intizamsız şagirdlər. Həmin təsnifatda şagirdlər əslində 4 tipə ayrılır:

1. Yaxşı oxuyan — intizamlı;
2. Yaxşı oxuyan — intizamsız;
3. Pis oxuyan — intizamlı;
4. Pis oxuyan — intizamsız.

Müəllimlər çox vaxt bəzi şagirdlərlə kifayət qədər işləmirlər, onların fərdi xüsusiyyətlərinə, maraqlarına düzgün istiqamət vermirlər. Müəllimlər şagirdləri bir şəxsiyyət

kimi təkcə bu iki ölçü axarında qiymətləndirəndə onlara birtərəfli münasibət bəsləyirlər.

Müasir şəraitdə müəllim-şagird sistemi məktəb məkanında tədrijən genişlənir və köklü surətdə yenidən qurulmağa başlayır. Bu münasibət sistemində müəllimə münasibət ön plana keçir. N.F.Talızinanın fikrincə, «müəllimlə münasibətlər sahəsi» uşaq həyatının mərkəzinə çevrilir və onların psixoloji əmin-amanlıq dərəcəsi bilavasitə bü kökdə müəyyən olunmağa başlayır.

Şifahi test üsulu ilə aparılan söhbətlərin nəticələri göstərir ki, ibtidai sinif şagirdlərinin təlim prosesində maraqlarının az olması, əqli inkişaf səviyyəsinin şagirdlərdə qeyri-bərabərliyi, yaradıcı fəaliyyətin zəif olması və s. amilləri sadalayırlar.

Müəllimlərdən aldığımız cavabların nəticələrinin müqayisəsi ibtidai sinif şagirdlərini 2 qrupa ayırmaq imkanını vermişdir:

I qrupa «yüksək əqli inkişaf səviyyəsinə malik olan şagirdlər» daxildir. Bu qrupa daxil olan şagirdlərin göstəricisi 58%-dir. Bu şagirdlər dərslərdə müəllimlərin hörmət və məhəbbətini qazanır, dərsə diqqətlə qulaq asırlar. Onlara olan müsbət münasibətləri adekvat qiymətləndirirlər. Dərslərdə onlara verilən suallara sərbəst və müstəqil şəkildə cavablar verirlər. Onlar özlərini sərbəst aparır, suallarla müəllimlərə müraciət edirlər. Rəsm, əmək fəaliyyəti məşğələlərində yaradıcı fəallıqlarını nümayiş etdirməyə cəhd göstərirlər. Bu şagirdlər müşahidəçilik qabiliyyəti və davranışlarının fəallığı ilə seçilirlər. Onlar nümunəvi davranışları və təlimə olan maraqları ilə diqqət mərkəzində olmağa səy göstərirlər.

II qrupa «əqli inkişaf səviyyəsi aşağı olan şagirdlər» daxildir. Bu qrupa daxil olan şagirdlərin göstərijisi 42%-dir. Bu şagirdlər dərslərdə passiv iştirakçıdırlar. Onların təlimə maraqları çox zəifdir. Suallara cavab verməkdə çətinlik çəkir, ya da cavab verməkdən imtina edirlər. Müşahidəçilik qabiliyyətləri çox aşağı səviyyədədir. Maraqları və meyilləri dəyişkəndir. Dərslər onlar üçün yorucu və cansıxıcıdır.

Tədqiqatda iştirak edən şagirdləri daha iki qrupa bölünmüşdülər:

1. Müəllim-şagird arasında əməkdaşlıq edən şagirdlər;
2. Müəllim-şagird arasında əməkdaşlıq etməyənlər.

I qrupa «müəllim-şagird arasında əməkdaşlıq edən uşaqlar» daxildir. Bu şagirdlərin göstəricisi 64%-dir. Bu şagirdlər müəllimlərin rəğbətini qazanmağa cəhd göstərirlər. Onlar həssas olduqlarından müəllimlərin birgə baxışı bu qurupun uşaqları üçün davranış işarəsidir. Bu şagirdlər özlərinin nümunəvi davranışları ilə müəllimlərin həmişə diqqət mərkəzində olmağa ciddi səy göstərirlər. Müəllimlər dərslərdə bu cür şagirdlərin əqli inkişaf səviyyəsinin tənzim və idarə edilməsinin intellektual, aktivlik (fəallıq) daha da dərinləşir. Əməkdaşlıq şəraitində müəllimlər öz qruplarının şagirdlərində idrak tələbatı yarada bilirlər. Müəllimlərin danışıq tərzi, jesti belə şagirdlər üçün emosional hisslərin yaranması mənbəyidir. Əməkdaşlıq nəticəsində müəllimlər şagirdlərə sərbəstlik verir, təşəbbüskarlığı və müstəqilliyi qiymətləndirirlər. Müəllimlərin tələbləri məsləhət, xahiş və təhrik formalarında ifadə olunur. Bu müəllimlərin şagirdlərlə ünsiyyətində müsbət qiymətlər üstünlük təşkil edir.

II qrupa «müəllim-şagird arasında əməkdaşlıq olmayanlar» daxildir ki, bu qrupun göstəricisi 36%-dir. Əməkdaşlıq olmayan şəraitdə müəllimlərlə ünsiyyətdən şagirdlər heç bir məmnunluq hissi keçirmirlər. Müəllimlərlə əməkdaşlığın zəifliyi şagirdlərin sərbəstliyini əlindən alır, hətta onların acizliyinə səbəb olur. Nəticədə şagird müəllimlərlə ünsiyyətdə olmaqdan uzaqlaşır. Təlim prosesində belə şagirdlərin əqli inkişaf səviyyəsi aşağı düşür. Əməkdaşlıq olmayan şəraitdə müəllimlər şagirdlərin təşəbbüskarlığını, habelə müstəqilliyini məhdudlaşdırır, itaəti rəğbətləndirirlər. Bu müəllimlərin şagirdlərə verdikləri qiymətlər stereotip formadadır. Bu hal onunla izah edilir ki, bu müəllimlər şagirdlərin fərdi

xüsusiyyətlərini, əqli inkişaf səviyyəsini dərsdə nəzərə almır, eləcə də onların davranış və hərəkətlərinə qiymət vermirlər.

Deməli, təlim prosesində şagirdlərin intellektual fəallıq səviyyəsinə müəllim-şagird münasibəti ciddi təsir göstərir. Çünki təlim prosesinin özü mahiyyət etibarilə dialoq şəklində cərəyan edir. Şagirdlərin şüurlu fəallıq səviyyəsi dialoqun xarakterindən asılıdır.

Beləliklə, hər 2 qrupa daxil olan şagirdlərin əqli inkişaf səviyyəsini müəyyənləşdirdik. Bu nəticələr aşağıdakı cədvəldə əks olunmuşdur:

Cədvəl 1. Müəllim-şagird əməkdaşlığının səviyyəsindən asılı olaraq şagirdlərin əqli inkişaf səviyyəsi (%-lə )

| İştirak edənlərin sayı | Müəllim -şagird əməkdaşlığının səviyyəsi | Şagirdlərin əqli inkişaf səviyyəsi (%-lə ) | | | |
|---|---|---|---|---|---|
| | | yaxşı oxuyan intizamlı | yaxşı oxuyan intizamsız | pis oxuyan intizamlı | pis oxuyan intizamsız |
| 100 şagird | yüksək | 28 | 37 | 27 | 8 |
| | aşağı | 5 | 28 | 42 | 25 |

Məlum olur ki, müəllim-şagird əməkdaşlığının xarakterindən asılı olaraq şagirdlərin əqli inkişaf səviyyəsi nəzərə çarpajaq dərəcədə fərqlənir.

Eksperimentin nəticələri tədqiqat işində irəli sürülən fərziyyənin doğruluğunu tamamilə sübuta yetirmişdir. Müəllim-şagird əməkdaşlığının həyata keçirilməsi təlim prosesində şagirdlərin əqli inkişaf səviyyəsinin inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir. Eksperimentin gedişində məlum oldu ki, müəllim-şagird əməkdaşlığı şagirdlərin yaradıcılıq imkanlarını genişləndirir.

Beləliklə, eksperimental materialların təhlili göstərir ki, müəllim-şagird əməkdaşlığının yüksək səviyyəsində göstərici yaxşı oxuyan-intizamlı şagirdlərdə 28%, yaxşı oxuyan-intizamsız şagirdlərdə 37%, pis oxuyan-intizamlı şagirdlərdə 27%, pis oxuyan-intizamsız şagirdlərdə isə 8% olmuşdur.

Müəllim-şagird əməkdaşlığının aşağı səviyyəsində göstərici yaxşı oxuyan-intizamlı şagirdlərdə 5%, yaxşı oxuyan-intizamsız şagirdlərdə 28%, pis oxuyan-intizamlı şagirdlərdə 42%, pis oxuyan-intizamsız şagirdlərdə isə 25% olmuşdur.

Fərziyyəmizə görə, yeniləşmə şəraitində məktəbdə keçirilən təlim prosesində müəllim-şagird əməkdaşlığında demokratik iş üslubuna üstünlük verilərsə, şagirdlərin əqli inkişaf səviyyəsini artırmaq və təlim prosesində yüksək nəticələr əldə etmək mümkündür.

Tədqiqatda avtoritar iş üslubunun üstünlük təşkil etdiyi müəllimlər avtoritar, demokratik iş üslubunun üstünlük təşkil etdiyi müəllimlər isə demokrat müəllimlər adlandırılmışlar.

Avtoritar müəllimlərdən fərqli olaraq, demokrat müəllimlərin sinfində şagirdlərin əqli inkişaf səviyyəsi demokrat müəllimlərin bacarıq və qabiliyyətlərindən, onların pedaqoji ustalığından, şagirdlərdə idrak tələbatı yarada bilməsindən asılıdır. Xeyirxah və humanist münasibətin üstünlük təşkil etdiyi qruplarda şagirdlərin əqli inkişaf səviyyəsinin formalaşması üçün əlverişli şərait yaranır.

Təlim prosesində müəllimlərin tərbiyə üslubları öyrənilmişdir. Müəyyən edilmişdir ki, ibtidai siniflərdə işləyən müəllimlərin 42%-i avtoritar, 58%-i demokrat müəllimlər kimi səciyyələndirilmişlər.

Alınan nəticələrə əsasən avtoritar və demokrat müəllimlərin psixoloji xarakteristikası öyrənilmişdir:

Avtoritar müəllimlərin sinfində şagirdlərin əqli inkişaf səviyyəsi çox aşağıdır. Şagirdlərə qarşı həddindən artıq tələbkarlıq, qadağaların çoxluğu, şagirdlərin idraki maraq və tələbatları azalmışdır. Bu cür müəllimlər şagirdlərin müstəqilliyini və təşəbbüskarlığını məhdudlaşdırırlar, itaəti rəğbətləndirirlər. Bu sinifdə şagirdlər müntəzəm olaraq cəzalanma və xəbərdarlıq edilirlər. Sinifdə şagirdlərin əqli inkişafındakı fərdi fərqlər nəzərə alınmır, davranışları qiymətləndirilmir. Situativ qiymətlər şagirdlərin əqli inkişaf səviyyəsinin zəifliyi ilə müşayiət olunur.

Demokrat müəllimlərin sinfində şagirdlərin əqli inkişafının səviyyəsi yüksəkdir. Bu sinifdə müəllimlər şagirdlərin müstəqilliyini və təşəbbüskarlığını qiymətləndirirlər. Müəllimlərin qiymətləri xeyirxahlıqla müşayiət olunduğundan şagirdlərin idraki maraq və tələbatları da yüksək olur. Sinifdə şagirdlər müəllimlərə tez-tez suallarla müraciət edib, çox şey öyrənməkdən həzz alırlar. Müəllimlər də şagirdlərin əqli inkişafındakı fərdi fərqləri nəzərə alırlar, onların rəftar və davranışlarını obyektiv qiymətləndirirlər.

Tədqiqat nəticəsində avtoritar və demokrat müəllimlərin sinfində şagirdlərin əqli inkişaf səviyyəsi müəyyənləşdirilmişdir. Bu nəticələr aşağıdakı cədvəldə əks olunmuşdur.

Cədvəl 2. Avtoritar və demokrat müəllimlərin sinfində şagirdlərin əqli inkişaf səviyyəsi %-lə

| tədqiqatda İştirak edənlər | tədqiqatda İştirak edənlərin sayı | Şagirdlərin əqli inkişaf səviyyəsi %-lə | | | |
|---|---|---|---|---|---|
| | | yaxşı oxuyan intizamlı | yaxşı oxuyan intizamsız | pis oxuyan intizamlı | pis oxuyan intizamsız |
| İbtidai sinif Şagirdləri | 100 şagird | 35 | 22 | 25 | 18 |
| Demokrat müəllimlər | | 22 | 12 | 16 | 6 |
| Avtoritar müəllimlər | | 13 | 10 | 9 | 12 |

Beləliklə, eksperimental materialların təhlili göstərir ki, üzərində tədqiqat aparılan yaxşı-oxuyan intizamlı şagirdlərdə əqli inkişaf səviyyəsinin göstəricisi 35%, yaxşı oxuyan-intizamsız şagirdlərdə 22%, pis oxuyan-intizamlı şagirdlərdə 25%, pis oxuyan-intizamsız şagirdlərdə isə bu göstərici 18% olmuşdur.

Demokrat müəllimlərin sinfində bu göstərici yaxşı oxuyan-intizamlı şagirdlərdə 22%, yaxşı oxuyan-intizamsız şagirdlərdə 12%, pis oxuyan-intizamlı şagirdlərdə 16%, pis oxuyan-intizamsız şagirdlərdə isə 6% olmuşdur.

Avtoritar müəllimlərin sinfində bu göstərici yaxşı oxuyan-intizamlı şagirdlərdə 13%, yaxşı oxuyan-intizamsız şagirdlərdə 10%, pis oxuyan-intizamlı şagirdlərdə 9%, pis oxuyan-intizamsız şagirdlərdə isə 12% olmuşdur.

Beləliklə, demokrat müəllimlərin sinfində şagirdlərin əqli inkişaf səviyyəsi avtoritar müəllimlərə nisbətdə yüksəkdir. Bu da onunla bağlıdır ki, demokrat müəllimlər şagirdlərin daxili aləminə xüsusi diqqət yetirir, rəyini öyrənir, ideyalarından bəhrələnir, hörmət hissini tələbkarlıqla üzvi surətdə uzlaşdırır. Özünün dözümlülüyü ilə seçilir. Bu önəmli keyfiyyət

demokratiya şəraitində xüsusi əhəmiyyətə malikdir. Dözümlülük və ya tolerantlıq, ümumiyyətlə, müasir təfəkkürün özünəməxsus xüsusiyyətlərindən biri hesab olunur.

Bu gün «Uşaq hüquqları Konvensiyası»nın qəbul edilməsi şagirdlərin təlim prosesinin obyekti deyil, məhz subyekti kimi qiymətləndirilməsi şəraitində isə demokratik tərbiyə (və ya rəhbərlik) üslubu xüsusi status kəsb edib.

Yeniləşmə şəraitində müasir məktəbin inkişafı müəllim-şagird münasibətləri çərçivəsində həm də demokratik tərbiyə üslubunun daha da demokratikləşdirilməsilə əlaqədar olacaqdır.

**Məqalənin aktuallığı.** Müasir dövrdə respublikamızın orta məktəblərində şagirdlərin əqli inkişafında müəllim-şagird əməkdaşlığının mühüm rol oynadığını nəzərə alsaq məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müəllim-şagird münasibətlərinin xarakterində dəyişiklik yaratmaqla şagirdlərin əqli inkişaf səviyyəsinin yüksəlməsinə nail olmağın mümkün yolları ilə bağlı Bakı şəhərinin bəzi məktəblərində aparılan eksperimentlərin nəticələrinə istinad edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1981.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual problemləri Bakı, 1986.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2002.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003.
5. Babayev Ş. M. Müəllim-şagird münasibətlərinin psixoloji məsələləri. Bakı, 1985.
6. Кан-Калик В.А. Учителю о педагогическом общение. М., 1987.

**Ч. Вердиева**

## Пути обучения взаимоотношений между педагогом и школьником в современных условиях

## Резюме

Проведенные психологические наблюдения в высших учебных заведениях в нашей республике показывают, что взаимоотношения между школьником и педагогом играют важную роль в умственном развитии ребенка. С большим сожалением должны отметить, что в современных школах такое взаимоотношение мало наблюдаемо. И естественно, это отрицательно влияет на умственное развитие школьника. С интенсивным развитием образования в республике ведутся работы, помогающие урегулированию этой проблемы. В современных условиях в развивающихся школах мы наблюдаем демократизацию воспитания.

**Ch. Verdieva**

## Ways of training of mutual relation between the teacher and by the schoolboy in modern conditions

## Summary

The carried out psychological supervision in higher educational institutions in our republic show, that the mutual relation between the schoolboy and teacher plays the important role in intellectual development of the child. With the large regret should note, that at modern schools such mutual relation is poorly observable. And it is natural, it negatively influences intellectual development of the schoolboy. With intensive development of education in republic the jobs assisting to settlement of this problem are conducted. In modern conditions at developing schools we notice democracy of education.

**Redaksiyaya daxil olub:** 22.04.2019